

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 155 (21.565)

20 avqust 2016-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Muxtar respublikanın dayanıqlı sosial-iqtisadi inkişafı təmin olunub

### Bu ilin ilk altı ayının nəticələri bunu bir daha təsdiq edir

*Qlobal iqtisadi böhranın mənfi təzahürlərinin meydana gəldiyi, tarazlaşma proseslərinin ağrılı keçdiyi bir dövrdə sosial-iqtisadi inkişafa nail olmaq və ya mövcud inkişafın dayanıqlılığını təmin etmək yalnız elmi əsaslara söykənən düzgün iqtisadi siyasət nəticəsində mümkündür. Belə bir şəraitdə ölkəmizlə heç bir quru yolu əlaqəsi olmayan, blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasının daxili resurslar hesabına yüksəlişini inamla davam etdirməsi, yeni-yeni nailiyyətlərə imza atması müstəqil Azərbaycan dövlətinin ən böyük uğurlarından biridir. Bütün bunların başlıca səbəbi ulu öndər Heydər Əliyevin əsasını qoyduğu inkişaf strategiyasının muxtar respublikada uğurla davam etdirilməsidir. Faktlara nəzər yetirdikdə əminlik yaranır ki, muxtar respublikamızda mövcud olan ictimai-siyasi sabitliyin fonunda davam etdirilən bu siyasət daha böyük uğurlara yol açmaqdadır.*



Naxçıvan Muxtar Respublikasında infrastrukturun yenilənməsi, müasir müəssisələrin, yeni iş yerlərinin yaradılması istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi uzunmüddətli və hərtərəfli inkişaf konsepsiyasının reallaşdırılmasına əsaslı töhfələr verib. Bu gün çoxşaxəli iqtisadiyyatın formalaşdırılması istiqamətində məqsədyönlü islahatların aparılması, mühüm əhəmiyyətə malik dövlət proqramlarının reallaşdırılması nəticəsində Naxçıvan sosial-iqtisadi inkişaf baxımından ölkəmizdə liderliyini qorumaqdadır. Qeyd edək ki, muxtar respublikada iqtisadi və sosial sahələrin inkişafını təmin etmək üçün tədbirlər cari ilin ilk altı ayı ərzində də davam etdirilib, dinamik inkişaf qorunub saxlanılıb.

İnkişafın ən mühüm göstəricilərindən biri, yeni istər maddi istehsal, istərsə də qeyri-maddi xidmətlər sahələrində iqtisadi fəaliyyətin son nəticəsini xarakterizə edən amillərdən biri ümumi daxili məhsulun artım həcmidir. Həyata keçirilən məqsədyönlü siyasətin nəticəsidir ki, muxtar respublikada sənaye müəssisələri, quşçuluq, heyvandarlıq, balıqçılıq, taxılçılıq, üzümçülük təsərrüfatları, kənd təsərrüfatı məhsullarının istehsalı, tədarükü, saxlanması, emalı və satışı kompleksləri yaradılıb, bir sıra ərzaq məhsulları üzrə daxili istehsal xeyli artıb. Bütün bu müsbət proseslər ümumi daxili məhsulun artımına səbəb olub. Belə ki, bu ilin yanvar-iyun aylarında ümumi daxili məhsul istehsalının həcmi 1 milyard 144 milyon 207 min manatdan çox olub ki, bu da bir il öncəki müvafiq göstəricini 2 faiz üstələyir. Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi ötən ilin müvafiq dövrünə nisbətən 4,2 faiz artaraq 2568 manatı ötüb.

Bir sıra istehsal sahələrində məhsul istehsalının həcminin artması, investisiya fəallığının güclənməsi, sahibkarlığın stimullaşdırılması və təşəbbüskarlığa geniş meydan verilməsi muxtar respublikanın iqtisadi dayaqlarını xeyli möhkəmləndirib. Cari ilin yanvar-iyun aylarında iqtisadiyyatın əsasını təşkil edən sənayenin inkişaf etdirilməsi üçün rəqabətqabiliyyətli müasir istehsal sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması sahəsində mövcud layihələrin icrası davam etdirilib, bu istiqamətdə stimullaşdırıcı tədbirlər həyata keçirilib. Bu sahədə mühüm malların istehsalının təmini muxtar respublikada sənayenin iqtisadiyyatda xüsusi çəkisini qoruyub saxlayıb. Cari ilin ilk altı ayı ərzində ümumi daxili məhsulun tərkibində ilk yeri 31,8 faizlik payla sənaye sahəsi tutub və maddi istehsalın payı 59,5 faiz təşkil edib.

Kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları, emal sənayesi Naxçıvanda əsas prioritet sahələr hesab edilir. Ekspertlər bu sahələr arasında kənd təsərrüfatının əhəmiyyətini xüsusi qeyd edirlər. Belə ki, muxtar respublika əhalisinin 70 faizi kəndlərdə yaşayır. Müasir dövrdə ən aktual problemlərdən biri kəndlərdən şəhərlərə köçməyin kütləvi hal almasıdır. Naxçıvanda isə belə bir problem yoxdur. Ona görə ki, kəndlərdə yaşayan əhalinin məşğulluğu təmin edilib. İnsanların kənd təsərrüfatı ilə məşğul olmaları, bol məhsul əldə etmələri üçün şərait yaradılıb. Yaşayış məntəqələrində müasir infrastrukturun qurulması, yolların abadlaşdırılması, qazın, işığın davamlı verilməsi, bütün kəndlərin telefonlaşdırılması, kənddə şəhər rahatlığının ən yüksək səviyyədə təmin olunması insanların torpağa bağlılığını daha da artırıb, kənd təsərrüfatının inkişafını təmin edib.

Məlumat üçün bildirək ki, bu ilin məhsulu üçün muxtar respublikada 61 min 526 hektar sahədə əkin aparılıb. Bu da 2015-ci ilin məhsulu üçün əkilmiş sahədən 112 hektar çoxdur.

Muxtar respublikada məhsuldar və keyfiyyətli toxum növləri istehsalının stimullaşdırılması məqsədilə toxumçuluq təsərrüfatlarının maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində işlər davam etdirilir. Bu gün muxtar respublikada 5 toxumçuluq təsərrüfatı fəaliyyət göstərir. Hazırda Naxçıvan şəhərində toxumçuluq təsərrüfatı üçün yeni kompleks inşa olunur. Muxtar respublikanın əsas toxumçuluq bazası olacaq bu kompleksdə taxılla yanaşı, digər bitki toxumlarının satışının da həyata keçirilməsi nəzərdə tutulub.

Kənd təsərrüfatının əsasını təşkil edən taxılçılıq aqrar sektorun digər bölmələrinin inkişafında həlledici rol oynayır. Taxıl öz kaloriliyinə görə insanın ərzaq balansı rasionunun yarısını təşkil edir. Bu sahənin inkişafına qayğı, diqqət göstərmədən bir çox sahələrin inkişafı mümkün deyildir. Taxıl istehsalının artırılması blokada vəziyyətində yaşayan Naxçıvan üçün xüsusilə əhəmiyyətlidir.

Sevindirici haldır ki, bu sahə muxtar respublikada hər il daha da inkişaf etdirilir, yeni-yeni nailiyyətlər əldə olunur. Ötən dövr ərzində də muxtar respublikada taxılçılıq üstün istiqamət kimi saxlanılıb və 2016-cı ilin məhsulu üçün əkilmiş 31 min 579 hektar sahədən 94 min 117 ton məhsul götürülüb.

Bu ilin məhsulu üçün muxtar respublikada 1758 hektar sahədə qarğıdalı əkini aparılıb ki, bu da bir il öncəki göstəricidən 676 hektar çoxdur. Qarğıdalı əkininin genişlənməsi muxtar respublikada dən ehtiyatlarının, həm də mal-qara üçün yaxşı yem bazasının yaradılmasına təkan verib.

Kartofçuluğun inkişafı da muxtar respublikada diqqət mərkəzindədir. Naxçıvanın torpaq-iqlim şəraiti də bu sahənin inkişafı üçün əlverişli şərait yaradıb. Son illər bu gəlirli təsərrüfat sahəsinin elmi metodologiya əsasında inkişaf etdirilməsi məqsədilə həyata keçirilən tədbirlər kartofçuluğa marağı daha da artırıb, kartofçuluğun inkişafında da müsbət dinamika saxlanılıb. 2016-cı ildə 3053 hektar sahədə kartof əkini aparılıb ki, bu da 2015-ci ildə əkilmiş sahədən 86 hektar çoxdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nın icrası muxtar respublika əhalisinin meyvə və tərəvəz məhsullarına olan tələbatının yerli istehsal hesabına təmin edilməsinə və tələbatdan artıq mövsümi məhsulların ixracına geniş imkanlar yaradır. 2016-cı ilin yanvar-iyun aylarında meyvə istehsalının həcmi bir il öncəyə nisbətən 1 faiz, tərəvəz istehsalı isə 2,7 faiz artıb. Hazırda meyvə və tərəvəz yığımı davam edir. Meyvəçiliyin inkişafını stimullaşdırmaq məqsədilə ilk dəfə 2016-cı ildə muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində Göycə festivalı keçirilib.

Muxtar respublikada əhalini təzə və keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək məqsədilə cari ilin ötən dövrü ərzində 1 istixana təsərrüfatı yaradılıb, 1 istixana təsərrüfatının genişləndirilməsi başa çatdırılıb. Tutumu 400 ton olan 2 soyuducu anbarın yaradılması və 1 istixana təsərrüfatının genişləndirilməsi hazırda davam etdirilir.

Məhsul istehsalçılarının kənd təsərrüfatı maşın və mexanizmləri ilə təchizatı davamlı olaraq yaxşılaşdırılmaqdadır. “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 57 ədədi 2016-cı ilin yanvar-iyun aylarında olmaqla, cəmi 1742 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və avadanlıq muxtar respublikaya gətirilib. Bəhs olunan dövr ərzində 72 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və avadanlıq lizinq yolu ilə məhsul istehsalçılarına verilib, 11 ədədi isə nağd yolla satılıb. Bu dövrdə məhsul istehsalçıları 4905,3 ton gübrə ilə təmin olunub.

Kənd təsərrüfatı istehsalının ixtisaslaşdırılması, eyni zamanda muxtar respublika əhalisinin əkinçilik və heyvandarlıq məhsullarına olan tələbatının ödənilməsinə, idxaldan asılılığın aradan qaldırılmasına və aqrar istehsal məhsullarının ixraca çıxışının təmin olunmasına, eləcə də bu sahədə rəqabətin daha da güclənməsinə şərait yaradır. Cari ilin ilk altı ayı ərzində kənd təsərrüfatının əsas sahələrindən biri olan heyvandarlığın inkişafı istiqamətində tədbirlər davam etdirilib, 6 heyvandarlıq təsərrüfatı yaradılıb, ümumilikdə, bank və kredit təşkilatları tərəfindən bu sahəyə 6 milyon 96 min 100 manat həcmində kreditlərin verilməsi təmin olunub. 1 iyul 2016-cı il tarixə muxtar respublikanın bütün təsərrüfat kateqoriyalarında qaramalın sayı 118 min 152 baş, qoyun və keçilərin sayı 740 min 497 baş olub ki, bu da 1 iyul 2015-ci il tarixə olan göstəriciləri müvafiq olaraq 1,7 və 2,4 faiz üstələyib. Muxtar respublikada diri çəkidə 11294,8 ton ət, 47097,5 ton süd istehsal olunub. Bu da 2015-ci ilin yanvar-iyun ayları ilə müqayisədə müvafiq olaraq 1,6 və 1,7 faiz çoxdur.

Daxili bazarda tələbatın yerli istehsal hesabına ödənilməsi məqsədilə 3 quşçuluq təsərrüfatının yaradılması hazırda davam etdirilir.

Cari ilin bəhs olunan dövründə kənd təsərrüfatı ilə məşğul olan təsərrüfat subyektlərinə, ümumilikdə, 7 milyon 233 min 500 manat məbləğində kreditlərin verilməsi təmin edilib.

Ümumilikdə isə 2016-cı ilin yanvar-iyun aylarında bir il öncəyə nisbətən 5,6 faiz çox, yəni 117 milyon 544 min 900 manat həcmində kənd təsərrüfatı məhsulu istehsal olunub.

Muxtar respublikada iqtisadiyyatın bütün sahələrində dövlət öz imkanları hesabına müasir sahibkarlıq subyektlərinin formalaşmasına geniş imkanlar yaradıb, onların öz potensiallarından səmərəli istifadə etmələri üçün əlverişli mühit formalaşdırıb. Naxçıvanda həyata keçirilən iqtisadi siyasət sahibkarlığın inkişafının sürətləndirilməsinə, sahibkarlığın rolunun gücləndirilməsinə, bu istiqamətdə dövlət qayğısının artırılmasına və ən əsası mövcud potensialın reallaşdırılmasına yönəlib. Belə ki, cari ilin yanvar-iyun ayları ərzində muxtar respublikada sahibkarlıq fəaliyyəti üçün verilən kreditlərin həcmi 13 milyon 32 min 600 manat təşkil edib. Bu kreditlərdən 9 milyon 414 min 600 manatı fərdi sahibkarlığın inkişafına, 3 milyon 618 min manatı isə yeni istehsal sahələrinin yaradılmasına və ya genişləndirilməsinə sərf olunub. Ümumilikdə, ötən dövr ərzində muxtar respublikada bank və kredit təşkilatları tərəfindən 20 milyon 410 min 900 manat həcmində kreditlərin verilməsi təmin olunub.

Yerli istehsal sahələrinin inkişafının nəticəsidir ki, bu gün muxtar respublikada 365 növdə məhsul istehsal edilir. Bu məhsulların 120 növü ərzaq, 245 növü qeyri-ərzaq məhsullarıdır. 107-si ərzaq, 236-sı qeyri-ərzaq olmaqla, 343 növdə məhsula olan tələbat tamamilə yerli imkanlar hesabına ödənilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrası muxtar respublikada işaxtaranların sosial müdafiəsinin gücləndirilməsinə, səmərəli məşğulluğun və özünüməşğulluğun təmin edilməsinə, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə geniş imkanlar yaratmaqdadır.

2016-cı ilin ilk altı ayı ərzində muxtar respublikada 1811 yeni iş yeri yaradılıb ki, bunun da 1768-i və ya 97,6 faizi daimi iş yerləridir. Əmək bazarının tələblərinə uyğun olaraq cari ilin ötən dövrü ərzində Naxçıvan Regional Peşə Tədris Mərkəzində qazanxana maşinisti, traktorçu-maşınçı, xalçaçı, aşpaz köməkçisi peşələri və digər peşələr olmaqla, ümumilikdə, 164 nəfər peşə kurslarına, 24 nəfər isə ixtisasartırma kurslarına cəlb edilib. Penitensiar Xidmətin Qarşıq Rejimli Cəzaçəkmə Müəssisəsində 12 məhkum qazanxana maşinisti, 10 məhkum isə daş üzərində oyma peşələri üzrə kurslara cəlb olunub. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyindəki peşə-ixtisas təhsili müəssisələrində cari ilin ötən dövrü ərzində 1167 nəfər müxtəlif peşələrə yiyələnib.

*Yuxarıda sadalananlar Naxçıvan Muxtar Respublikasının bütün sahələrdə inkişafa nail olunmasının göstəriciləri, böyük uzaqgörənliklə müəyyənləşdirilmiş inkişaf strategiyasının nəticələridir. Bu isə muxtar respublikanın şəhər və kəndlərinin simasını köklü şəkildə dəyişdirir. Hazırda Naxçıvanın hər bir sakini quruculuğun, sosial-iqtisadi inkişafın, davamlı yüksəlişin real nəticələrini öz gündəlik həyatında hiss etməkdədir. Bütün bunlar ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin böyük uğurla davam etdirilməsi nəticəsində mümkün olub.*

**Rauf ƏLİYEV**

# İqtisadiyyat



## “Sirab” – hər damlasında həyat var

### Bu mineral su dünyanın beş ölkəsinə ixrac olunur

***Naxçıvan, möcüzələr diyarı, ulu torpaq. Tanrı Nuhun torpağına minbir dərdin dərmanı olan mineral bulaqlar bəxş edib. 5,5 min kvadratkilometr ərazisi olan Naxçıvanda 250-dən artıq mineral su mənbəyi mövcuddur və bunların içərisində “Sirab” da öz məşhurluğu ilə seçilir. Bəli, “Sirab” suyu qədim Naxçıvan torpağını dünyada tanıtma dəyərinə malikdir.***

*Kəlbəağıldan dünyaya uzanan yollar*

Babək rayonunun Sirab kəndi ərazisində Kəlbəağıl vadisində 250 metr dərinlikdən qaynayan su quyusunun üzərində bina tikilib, sanitariya qaydaları əsasında qorunması təmin edilib. Bu su paslanmayan borularla 3 kilometrlik məsafədə yerləşən istehsal sahəsinə gətirilir.

Niyə bu suyun istehsalı zəruri məqsəd kimi qarşıya qoyulub? Çünki “Sirab” suyu insanın qan dövranını, tənəffüsünü, regenerasiyanı, ürək fəaliyyətini yaxşılaşdırmaq, həmçinin süfrədə yemək zamanı xoş dadvermə kimi mühüm xüsusiyyətlərə, mədə-bağırsaq xəstəlikləri zamanı şirəqovucu xassələrə malikdir. Elə xalq da “Sirab”ın belə möcüzəvi xassələrinə görə onu “sirli su” adlandırıb. “Sirab” tədqiq edildikdən, tərkibi araşdırıldıqdan sonra aydın olub ki, bu mineral su aerozol şəklində tənəffüs yolları xəstəliklərinə və allergik xəstəliklərə yaxşı təsir edir, həzm yolları, qaraciyər, öd kisəsi və böyrək xəstəlikləri, maddələr mübadiləsi pozğunluqları zamanı tətbiq edildikdə xeyrini göstərir. Məhz istehlakçılar da bu suyun möcüzəvi xassələrini görərək indi onu süfrələrinin bəzəyinə çeviriblər.

“Sirab” suyunun istehsalına ilk dəfə 1950-ci ildə primitiv üsulla kiçik bir sexdə başlanılıb. Bu ilk addımlar 1968-ci ildə tikilib istifadəyə verilən Sirab Mineral Sudoldurma Zavodu ilə bir az da artıb və keçmiş Sovetlər birliyindəki müttəfiq respublikalarda böyük maraqla qarşılanıb.

“Sirab”ın dünyaya çıxdığı illər ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrünə təsadüf edirdi və həmin dövrdə zavodun tam gücü ilə işləməsi təmin edilmişdi. Azərbaycanın, o cümlədən muxtar respublikanın başqa ölkələr arasında tanınmasına yönəldilən bu siyasətin nəticəsi idi ki, 1984-cü ildə zavodda yeni texnoloji avadanlıqlar tətbiq olunmaqla əlavə iki xətt quraşdırıldı, istehsal gücü ildə 4,5 milyon butulkaya çatdırıldı. Amma ötən əsrin 90-cı illərində baş verən məlum hadisələr, iqtisadiyyatın zəifləməsi, muxtar respublikanın blokadaya alınması bu zavodun fəaliyyətini də, demək olar ki, iflic vəziyyətinə saldı. 1993-cü ildə ulu öndərin respublika rəhbərliyinə qayıdışı ilə ölkəmizin ayrı-ayrı bölgələri kimi, muxtar respublikamızda da bazar iqtisadiyyatının tələblərinə uyğun sahibkarlıq mühitinin formalaşdırılması, iş adamları üçün əlverişli şəraitin yaradılması istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirildi.





Sirab Mineral Sudoldurma Zavodunun bazasında yaradılan Açıq Səhmdar Cəmiyyəti əsaslı təmir və yenidənqurma işlərindən sonra 2003-cü il iyul ayının 14-də istifadəyə verilib. Dağların qoynunda, təbiətin füsunkar guşəsində ikimərtəbəli inzibati bina, işçilərə iaşə xidməti göstərilməsi üçün yeməkxana, istehsal və digər yardımçı sexlər, anbar, karbon qazı və kompressor stansiyası tikildi. Müəssisənin həyəti abadlaşdırıldı. İndi bu ünvan abadlığı, yaşıllığı, gülü-çiçəyi ilə göz oxşayır. Bu səliqə-sahman istehsal prosesinin müasir tələblər səviyyəsində qurulmasına da əlverişli şərait yaradıb.

*İstehsalda yeniliklər əsas şərtdir*

Yayın qızmar keçən bu günlərində “Sirab” suyunun istehsal olunduğu müəssisəyə yollandıq. Burada Naxçıvan sahibkarlarına göstərilən qayğının bəhrəsi qürurverici ab-hava yaradıb.

İstehsalla bizi tanış edən baş mühəndis Məşdi Mazanov deyir ki, mənbədən gətirilən mineral su ilkin mərhələdə suda olan iri hissəcikləri ayırmaq üçün mexaniki filtrdən keçirilərək 50 tonluq paslanmayan çənə doldurulur. Sonra su 25 mikronluq qum filtrindən süzülərək emallı ehtiyat su çənlərinə ötürülür. Bu proses istehsala verilən mineral suyun davamlılığını təmin etmək və mineral suyun bir neçə saat ərzində dincə qoyulması üçün nəzərdə tutulub. İstehsal prosesi ehtiyat su anbarından mineral suyun soyuducu qurğulara ötürülməsi ilə başlayır. Bu soyuducularda su 4-8 dərəcədə soyudulur və istehsal sexlərinə verilir. Sexlərdə mineral su qablaşdırılmadan öncə bir neçə vacib mərhələdən – ilkin olaraq, 5 və 1 mikronluq filtrlərdən süzülərək ultrabənövşəyi şüalar qurğusundan keçir. Bu proses mineral suyun tərkibində hər hansı bir mərhələdə yarana biləcək bakteriyaların məhvini təmin edir. Bununla da, istehsalda suyun doldurmaya hazırlanma prosesi başa çatır.

Müsahibimiz bildirir ki, dolumdan öncə mineral suyun karbon-dioksid qazını rahat və lazımi miqdarda qəbulu üçün su 4-8 dərəcəyədək soyudulur. Karbon-dioksidin vurulmasında məqsəd qablaşdırılan məhsulun saxlama müddətinin artırılması və mineral duzların çökmə ehtimalının qarşısını almaqdır. Bütün bu proseslərdən sonra mineral su lazımi çeşidlərdə qablaşdırılaraq paketlənib satışa göndərilir.

Bəs qablaşdırma necə aparılır? Məşdi Mazanov bu sualımıza da aydınlıq gətirir: – Dünyada rəqabətədavamlı məhsul istehsal etmək üçün müxtəlif ölkələrdən, o cümlədən Rusiya Federasiyası, Türkiyə və Polşa respublikalarından müasir texnoloji tələblərə və standartlara cavab verə biləcək avadanlıqlar alınıb müəssisəyə gətirilib. Zavodda müasir tələblərə cavab verən 5 texnoloji xətt quraşdırılmış 3 sex fəaliyyət göstərir. Bu xətlərdə qazlaşdırılmış və qazlaşdırılmamış “Sirab” təbii mineral müalicəvi süfrə suyunun müxtəlif həcmli 19 çeşiddə plastmas və şüşə butulkalara doldurulması həyata keçirilir.

Baş mühəndis plastmas butulkaların doldurulması sexindəki iki texnoloji xətti göstərərək diqqətimizə çatdırdı ki, biri saatda 6 min, digəri 4 min ədəd butulka sudoldurma gücünə malikdir. Birinci dəzgahda butulkalar şişirdilir, digərinə keçərək yuyulur, sonra doldurulur, ağzı bağlanır və üzərinə istehsal və son istifadə tarixləri vurularaq nəzarət ekranından keçirilir. Sonra etiketvurma dəzgahına ötürülür. Axırıncı proses butulkaların paketlənməsidir. Hazır məhsul anbara yığılır, oradan isə zavoda məxsus maşınlarla sifarişlərə uyğun olaraq muxtar respublikanın müxtəlif ticarət obyektlərinə, eləcə də Azərbaycanın müxtəlif şəhərlərinə və xarici ölkələrə yola salınır.

Qazsız suyun istehsalı ilə tanışlıqda isə öyrəndik ki, sexdə Türkiyə Respublikasından müasir texnoloji tələblərə və standartlara cavab verən və saatda 11 min butulka məhsul istehsal edən avadanlıqlar alınaraq quraşdırılıb. Həmin avadanlıqların köməyi ilə 3 çeşiddə – 0,5, 1 və 1,5 litrlik butulkalarda, həmçinin 5 və 19 litrlik qablarda qazsız su alıcılara təqdim edilir.

Şübhəsiz ki, bu gün sahibkarlığın inkişafına göstərilən qayğı həm də sakinlərin işlə təmin edilməsinə göstərilən qayğının böyük ifadəsidir. Hazırda “Sirab” Açıq Səhmdar Cəmiyyətində 110 işçi çalışır. Müəssisədə daha keyfiyyətli su istehsalı üçün işçilər təkmilləşdirmə kurslarına göndərilirlər.

*Uğurlara doğru addımlar*

Zavodun icraçı direktoru Zülfü Hüseynov söhbət əsnasında vacib bir amilə toxunaraq dedi ki, “Sirab” ASC-də bütün istehsal prosesi İSO standartlarına – keyfiyyəti idarəetmə sisteminin tələblərinə tam uyğun şəkildə təşkil edildiyi üçün müəssisə müxtəlif illərdə xarici ölkələrin sertifikatlaşdırma təşkilatları tərəfindən sertifikatlaşdırılıb. Bu isə “Sirab” suyunun yüksəkkeyfiyyətli istehsalının göstəricisi və Avropa bazarlarına girişinin açarıdır.

Əlbəttə, gerçəklik göz qabağındadır. Dünya standartlarına cavab verə biləcək yüksəkkeyfiyyətli məhsul istehsal etməyin nəticəsidir ki, bu gün dünya ölkələrində rəğbətlə qarşılanan “Sirab” mineral suyu müxtəlif ölkələrdə keçirilən beynəlxalq sərgilərdə dörd qızıl və bir gümüş medal qazanıb.

Zülfü Hüseynov onu da bildirdi ki, “Sirab” Açıq Səhmdar Cəmiyyəti 2005-ci ilin may ayında İsveçrənin Cenevrə şəhərində “Biznesdə yüksək keyfiyyətə görə” qızıl medal, 2009-cu ildə Ukraynanın Kiyev şəhərində keçirilən “Qida məhsulları və içkilərin XII forumu”nda qızıl medal, 2010-cu ildə Moskva şəhərində keçirilən XVII beynəlxalq sərgidə gümüş medal, 2011-ci ildə Moskva şəhərində keçirilən XVIII beynəlxalq sərgidə qızıl medal və 2011-ci ildə Qazaxıstanın Almatı şəhərində keçirilən XIV Beynəlxalq Mərkəzi Asiya “Yeyinti sənayesi” sərgisində yenə də qızıl medal qazanıb. Həmçinin dəfələrlə “İlin brendi”, “Biznesdə uğur” mükafatlarına layiq görülüb. Cari ildə Beynəlxalq Ləzzət və Keyfiyyət İnstitutu tərəfindən “Mükəmməl ləzzət mükafatı”nı qazanması da “Sirab” mineral suyunun yüksək keyfiyyətinə dəlalət edir. Bu il isə Türkiyə və Dubayda beynəlxalq sərgilərdə iştirak edib.

İcraçı direktorun sözlərinə görə, hazırda “Sirab”ın Türkiyə, Rusiya, Türkmənistan, Ukrayna kimi ölkələrdə kifayət qədər alıcısı var. Yaxın zamanlarda bu su Litva bazarına da çıxarılacaq.

Sözsüz ki, “Sirab” mineral suyunun istehsalında hər il artan statistik göstəricilər də suya olan marağın, tələbatın nəticəsidir. Elə cari ilin altı ayında müəssisədə 5 milyon butulka su istehsal olunub ki, bunun da 434 mini xarici istehlakçılara satılıb.

*Bir sözlə, günü-gündən “Sirab”ın alıcısı artır. Çünki onun hər damlasında həyat var!*

**Hafizə ƏLİYEVA**

## “Ləzzət Qida Sənaye” Məhdud Məsuliyyətli Cəmiyyətində yeni çeşidlərdə yerli ərzaq məhsulları satışa çıxarılır

*Muxtar respublikamızda sahibkarlıq mühitinin genişləndirilməsi, iş adamları üçün əlverişli şəraitin yaradılması istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir.*

Sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılması və genişləndirilməsi özəl sektorun ümumi daxili məhsuldakı payının ilbəil artması ilə müşahidə olunur.

Naxçıvan şəhərində fəaliyyət göstərən “Ləzzət Qida Sənaye” Məhdud Məsuliyyətli Cəmiyyəti də özəl bölmənin, sahibkarlıq fəaliyyətinin inkişafına yaradılan şəraitdən, göstərilən dövlət qayğısından bəhrələnib.

Müəssisə 1998-ci ildə qənnadı sexi kimi fəaliyyətə başlayıb. Maliyyə imkanları artdıqca fəaliyyətini genişləndirib, kənd təsərrüfatı məhsullarının təmizlənməsi, çeşidlənməsi, qovrulması və paketlənməsi istehsalı sahəsi istifadəyə verilib. Burada gün ərzində 10 ton məhsul istehsal etmək mümkündür. Qovurma avadanlığının gündəlik istehsal gücü 4-4,5 ton, paketləmə avadanlığının gücü isə 3,5 tondur.

Daha müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla daxili bazarın tələbatına uyğun müxtəlif çeşiddə məhsulların istehsalı da diqqət mərkəzində saxlanılıb. Qənnadı sexində Türkiyə Respublikasından alınmış istehsal gücü dəqiqədə 200-300 ədəd doğranmış qəndi tək və cüt paketləyən, istehsal gücü gündə 200-300 kiloqram lokum, kənd təsərrüfatı məhsullarının təmizlənməsi, çeşidlənməsi, qovrulması və paketlənməsi sexində isə istehsal gücü saatda 50 kiloqram qarğıdalı çubuğu olan müasir texnoloji avadanlıqlar quraşdırılıb. Hazırda qənnadı sexində 5 çeşiddə qənd və 2 çeşiddə lokum istehsal olunur. Müəssisədə istehsal olunan məhsulların xammal ehtiyatı, əsasən, əhalidən alınır ki, bu da aqrar sektorun inkişafına, eləcə də torpaq mülkiyyətçilərinin alıcı problemi ilə üzləşməməsinə öz müsbət təsirini göstərir. Yəni torpaq mülkiyyətçiləri istehsal etdikləri lobya, noxud, günəbaxan, balqabaq tumu, mərcimək və başqa kənd təsərrüfatı məhsullarını müəssisəyə təhvil verməklə gəlir əldə edirlər. Sahibkarlıq fəaliyyətinin inkişafı əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə, daxili bazarın keyfiyyətli yerli məhsullarla təmin olunmasına əlverişli şərait yaratmaqla bərabər, xaricdən idxal edilən, mənşəyi məlum olmayan, keyfiyyətsiz məhsulların muxtar respublikamıza gətirilməsinin qarşısını alır.




Müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla fəaliyyəti genişləndirilən müəssisədə istehsalın həcminin artırılması ilə əlaqədar əlavə işçi qüvvəsi cəlb olunub. 10 nəfər işçi qüvvəsi ilə fəaliyyətə başlayan müəssisədə hazırda 233 nəfər çalışır.

36 adda, 90 çeşiddə istehsal olunan məhsullar Naxçıvan şəhərində və ayrı-ayrı yaşayış məntəqələrində fəaliyyət göstərən ticarət obyektlərinə paylanılır. Həmçinin ölkəmizin paytaxtı Bakı şəhərində və digər regionlarda satışı təmin olunur. Cari ilin iyul ayından isə alıcı tələbatının öyrənilməsi məqsədilə ilkin olaraq nəfis tərtibatla bəzədilmiş 250 və 450 qramlıq taralarda çərəzli və meyvəli lokum Rusiya bazarına çıxarılıb.

**Kərəm HƏSƏNOV**

# Bəşər övladının ilk evləri – *mağaralar*

***Tarix elminə görə, bəşəriyyətin ilk yaranışından ibtidai insanların əsas yaşayış "evi" mağaralar olub. İnsanlar bu cür sığınacaq yerlərində ictimai mədəniyyətin ilkin nümunəsi olan birgə yaşamaq mədəniyyətini formalaşdırıblar. Mağaralar onları sərt iqlimdən, vəhşi heyvanların hücumundan qoruyub. Daş hörgünün meydana gəlməsi isə qazma və yarımqazma evlərin yaranmasında mütərəqqi rol oynayıb. Ancaq buna baxmayaraq, mağaralar öz əhəmiyyətini min illər boyu saxlayıb. Müasir dövrdə isə mağaralar tarixi öyrənmək baxımından əvəzolunmaz obyektlərdir. Çünki bu qədim sığınacaq yerləri keçmişdə insanların məşğuliyyəti, yaşam tərzi haqqında dolğun məlumatları özündə saxlamaqla yanaşı, aid olduğu regionun keçmişi haqqında da bizə bir sıra məlumatları çatdıran mənbələrdir. Qədim Naxçıvan diyarı da məhz bu cür mənbələrlə zəngindir. Elə bu yazıda da "Naxçıvan Abidələri Ensiklopediyası"na istinadən onlardan bir neçəsi haqqında bəhs edəcəyik.***







Əvvəlcə onu qeyd edək ki, Naxçıvanın qədim və zəngin tarixə malikliyinin əsas səbəbi bu diyarın ilkin yaşayış məskəni olmasındadır. Bir bölgənin və ya regionun ilkin yaşayış məskəni olmasını zəruri edən əsas səbəblərdən biri həmin ərazidə insanların yaşayış üçün tələbatının ödənilməsidir. Bu tələbatın ödənilməsində birinci rolu iqlim şərtlərinin əlverişliliyi oynayır. Ölkəmizin, o cümlədən Naxçıvanın əlverişli iqlimi tarixboyu insanların yaşamaq uğrunda mübarizəsində mühüm rol oynayıb. Eyni zamanda bu reallığı da qəbul etməliyik ki, Naxçıvanın özünəməxsus relyefində dağlıq ərazilərin çoxluğu burada xeyli sayda mağara və mağaratipli sığınacaqların yaranmasına, bu da, öz növbəsində, həmin yerlərin ilk yaşayış məskəni kimi formalaşmasına səbəb olub. Sanki uca Yaradan bəşəriyyətin incisi sayılan insanlara burada məskunlaşması üçün gözəl iqlim, bərəkətli torpaqlar, saysız-hesabsız su mənbələri ilə yanaşı, həm də onları müəyyən çətinliklərdən qoruyacaq mağaralar bəxş edib. Belə mağaralardan biri Sədərək rayonunun ərazisində yerləşən Əjdəhan mağarasıdır.

Əjdəhan mağarası Sədərək kəndindən şimalda, qayalıqların arasında yerləşir. Yaxınlığında 7 ildən bir qaynayıb çıxan Cincili bulaq var. Mağaranın uzunluğu 12 metr, eni 3-4,5 metr, hündürlüyü 2-2,5 metr arasındadır. Ötən əsrin sonlarında məlum hadisələr zamanı mağaranın üzərinə mərmilər düşdüyündən onun tavanının bir qismi dağılaraq girişi tutulub. Eyni zamanda tavanı ocaq yanmasından qaralıb. Mağaranın ön tərəfi kiçik meydan şəklindədir. İçərisi nəm torpaq qatı ilə örtülüb. Araşdırmalar zamanı mağaranın girişindən erkən orta əsrlərə aid keramika məmulatları aşkar olunub ki, bu da mağaradan müəyyən müddət yaşayış məskəni kimi istifadə edildiyini göstərir. Burada qədim mədəniyyət izlərinin olmasının müəyyənləşdirilməsi arxeoloji araşdırmalar tələb edir. Alimlər bu yaşayış yerini III-VIII əsrlərə aid edirlər.

Şərur rayonunda Hadiqaib yaşayış yeri yaxınlığında (Şərur rayonunda Axuraçayın sol sahili) sıldırım qayaların yanında yerləşən mağara da öz qədimliyi ilə seçilir. Mağaranın uzunluğu 10 metrdən artıq, hündürlüyü 2 metr, bəzi yerlərdə 3 metrə çatır. Ağız hissəsi aşağıdan daşlarla hörülüb. Giriş hissədən 2 metr içəriyə doğru qazılmış yerdə itiuclu obsidian (dəvəgözü) qəlpələri səpələnib. Burada arxeoloji tədqiqat işləri aparılmayıb.

Əldə olunan silah nümunəsinə əsasən, mağaranın Daş dövründə ibtidai insanların yaşayış məskəni olması ehtimal edilir.

Pisdər mağarası da Şərur rayonunun Axura kəndinə yaxın ərazidə yerləşir. Kəndin şərq səmtindəki Tana qalası yaxınlığındakı bu arxeoloji abidə yarımdairəvi formadadır. Mağaranın dərinliyi 10 metrdən artıqdır. Aşağı hissəsi torpaqla örtülüb. Bu mağara da arxeoloji tədqiqatlara cəlb olunmayıb. Mağaradan ibtidai insan məskəni kimi istifadə olunduğu ehtimal edilir.

Şərur rayonunun Tənənəm kəndindən 3 kilometr cənub-şərqdə, Arpaçayın sol sahilində yerləşən Qazma mağarası isə böyüklüyünə görə yuxarıdakılardan fərqlənir. Bu arxeoloji abidə Paleolit dövrünə aid edilir. Dəniz səviyyəsindən, təqribən, 1500 metr yüksəklikdə yerləşən mağaranın uzunluğu 22 metr, eni 1-6,5 metrdir. 1987-90-cı illərdə tədqiq edilən abidədə 6 mədəni təbəqə qeydə alınıb. Burada çöküntünün ümumi qalınlığı 3 metrə bərabərdir. 20 kvadratmetr sahədə aparılan arxeoloji qazıntılar nəticəsində 12 mindən artıq ovlanmış heyvan sümüyü və 1000-ə qədər obsidian, çaxmaqdaşı və daşlı şistdən hazırlanmış əmək alətləri aşkar edilib. 4-cü təbəqədən daş alətlərlə yanaşı, sümükdən biz, bıçaq, kəsici və oyucu alətlər də aşkar olunub. 5-ci və 6-cı təbəqələrdə bir neçə ocaq yeri qeydə alınıb. Düşərgənin 4-cü təbəqəsində çapılıb doğranmış fauna qalıqlarının çoxluğu ovçuluğun o dövrdə ibtidai insanların əsas məşğuliyyəti olduğunu göstərir. Qazma mağarasında tapılmış daş məmulatının hazırlanma texnikası və tipoloji xüsusiyyətləri bu ərazidə qədim insanların hələ Mustye mədəniyyəti dövründə, yəni 80-90 min il bundan əvvəl məskunlaşıb yaşadıqlarını göstərir. Tədqiqatlara görə, eradan əvvəl 3-cü minillikdə bu ərazi türklərin ərazisi olmaqla Kas türklərinə məxsus olub və qalanın adı qazıntı ilə heç bir əlaqəsi olmayan Kas bəylərinin adındandır.

Haqqında bəhs edəcəyimiz növbəti mağara isə Culfa rayonunun Gülüstan kəndi yaxınlığında, Dərəşam dəmiryol stansiyasından şərqdə, qayaların arasında yerləşir. Təbii mağara 3 salondan ibarətdir. Yaşayış, əsasən, bir salonda olub. Lakin mağaranın daxilinə doğru uzanan ikinci və üçüncü salon da ən çətin hava şəraitində hər hansı təhlükədə etibarlı sığınacaq sayılır. Təbii mağaranın ön tərəfi əhəng məhlulundan istifadə edilməklə daşdan hörülmüş hündür divarla kəsilib. Vaxtilə mağaranın təbii girişi olub. Lakin divarın bir qismi və girişi tamamilə dağılıb. Buradakı mədəni təbəqə, əsasən, mağaranın divar hörülmüş qabaq hissəsində olub. Divarla mağaranın arasındakı döşəmə müxtəlif tullantılar və bitki çürüntüləri ilə dolub. Yığılan mədəni təbəqənin qalınlığı 2,5 metrə qədərdir. Mağaranın qabağına hörülmüş divarın uçurulması ilə buradakı keramika məmulatı dərəaşağı yayılıb. Araşdırma zamanı orta əsrlərə aid şirli və şirsiz keramika parçalarına rastlanıb. Tikinti qalıqlarına və keramika məmulatlarına əsasən, tədqiqatçılar mağaradan orta əsrlərdə yaşayış yeri kimi istifadə edildiyini bildirirlər. Əldə edilmiş materiallara əsasən, yaşayış yeri XIV-XVII əsrlərə aid edilir.

Muxtar respublika ərazisində ən əhəmiyyətli rola malik mağaralardan biri, təbii ki, uzaq keçmişdən ziyarətgah kimi istifadə olunan Əshabi-Kəhf mağarasıdır. Bu ad ərəb dilində "mağara sahibləri" deməkdir. Müqəddəs "Qurani-Kərim"də "Əl-Kəhf" surəsinin 9-27-ci ayələrində Allahdan başqasına inananlardan ayrılıb mağaraya sığınan 7 gəncin 300 ildən artıq yatdıqlarından, oyandıqdan sonra başlarına gələnlərdən bəhs edilir. "Qurani-Kərim"də mövcud olan hadisə müəyyən dəyişikliklərlə Naxçıvandakı Əshabi-Kəhflə bağlı rəvayətlərdə də öz əksini tapıb. Uzun illər bir sıra ədəbiyyatlarda mövcud olmuş yanlış fikrə görə, hadisə xristianlıqla əlaqələndirilib, "Qurani-Kərim"də adıçəkilən mağaranın Kiçik Asiya və ya Fələstin ərazisində, hətta dünyanın digər ölkələrində olduğu güman edilib. Həmin ədəbiyyatlarda Naxçıvanda olan Əshabi-Kəhf mağarasından və rəvayətdən bəhs olunmayıb. Lakin son dövrdə aparılmış araşdırmalar sübut edib ki, "Qurani-Kərim"də adıçəkilən Əshabi-Kəhf mağarası Naxçıvan ərazisindədir və bunun xristianlıqla heç bir əlaqəsi yoxdur. Mağaranın sonunda olan məscidin mehrabında kitabə vardır. İrihəcmli mərmər lövhələrdən ibarət olan kitabənin mərkəzi hissəsində çərçivələr içərisində "Qurani-Kərim"in Əshabi-Kəhf hadisəsindən bəhs edən "Əl-Kəhf" surəsindən 9-12-ci, 17-18-ci ayələri həkk edilib. Lövhənin kənarlarında, sağ tərəfdə yuxarıdan başlayaraq sol tərəfdə başadək ensiz, lentvarı haşiyə şəklində yazılan kitabənin məzmunu belədir: "Qar, yağış təsirindən burada yazılmış xətlər məhv olmuşdu. Ona görə də bu əzəmətli məkanın taleyi barəsində Naxçıvan ölkəsinin hakimi Şükrulla xan Kəngərli – adıçəkilən ölkənin keçmiş hakimi, xeyirxah əməllər banisi Heydərqulu xanın xələfi qərar verərək buyurdular ki, həmin lövhənin üzünü təzədən, səhvsiz ayrı bir daş lövhəyə yazdırsınlar və yadigar olaraq keçmiş lövhənin yerinə nəsib etsinlər. Bu əmrə əsasən, mərhum, mömin Molla Mustafanın oğlu Məhəmməd Xətib Naxçıvani işə başlayıb, 1190-cı ilin səfər əl-müzəffər ayında (22.03-20.04.1776) lövhəni yazıb qurtarmışdır". Göründüyü kimi, əvvəllər bu kitabənin yerində "Qurani-Kərim"in qeyd olunan ayələri həkk edilmiş ayrı bir kitabə olub, ancaq zaman keçdikcə təbii amillərin təsirindən aşındığı üçün həmin vaxt Naxçıvan ölkəsinin hakimi olan Şükrulla xan Kəngərlinin əmri ilə mətn ayrı bir mərmər lövhəyə yazılıb onun yerinə qoyulub. 1998-ci ildə ümummilli liderimiz Heydər Əliyevin tapşırığı və himayəsi ilə ziyarətgahda abadlıq-bərpa işləri aparılıb və görülən bu işlər ziyarətgahın girişindəki kitabədə qeyd olunub. Son illərdə isə burada yenidənqurma işləri aparılıb, zəvvarlar üçün hərtərəfli şərait yaradılıb, ziyarətgaha gedən avtomobil yolu abadlaşdırılıb, kənarlarında yaşıllıq zolaqları salınıb.

Bir məqamı da vurğulayaq ki, muxtar respublika ərazisində, yazının əvvəlində də qeyd etdiyimiz kimi, saysız-hesabsız mağaralar mövcuddur. Hətta bu mağaraların çoxu sonralar xalqın müxtəlif inanclarına görə pirlərə çevrilərək müqəddəsləşdirilib. Məsələn, Babək rayonunun Cəhri kəndindən qərbdə 34 metr uzunluğundakı Qaş piri, Şərur rayonunun Havuş kəndinin şimal-şərq qurtaracağındakı sıldırım qayalar arasında yerləşən Havuş piri və digərləri məhz belə mağaralardandır və bu cür təbii abidələrin sayını xeyli artırmaq mümkündür.

*Ümumilikdə isə gəldiyimiz nəticə bundan ibarətdir ki, Naxçıvan ərazisindəki mağaraların çoxluğu bu diyarda məskunlaşmanın tarixinin çox uzaq dövrlərə dayandığının göstəricisi olmaqla yanaşı, həm də bu məskunlaşmanın kütləviliyinə dəlalət edir. Yəqin ki, zaman gələcək, bu sahə ilə məşğul olan tədqiqatçılar Naxçıvanın 5000 illik şəhər mədəniyyətinədək qət etdiyi yolun ilkin yaşayışın və mədəniyyətin formalaşdığı mağaralardan başlandığını təsdiqləyəcəklər.*

**✍ Səbuhi HƏSƏNOV**

***AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyasının rəhbəri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevdən aldığımız məlumata görə 2016-cı ilin avqust ayında I Kültəpə yaşayış yerində arxeoloji tədqiqatlara başlanılıb.***

## I Kültəpə Cənubi Qafqazın ən qədim Neolit abidəsidir



Məlumatda qeyd edilib ki, arxeoloji tədqiqat işləri ilə bərabər, ekspedisiyanın üzvləri qədim mədən yerlərini və köçmə maldarlıqla bağlı yaşayış yerlərini, köç yollarının istiqamətlərini araşdırırlar. Araşdırmalar nəticəsində məlum olub ki, I Kültəpə yaşayış yeri Cənubi Qafqazın Neolit abidəsidir. Cənubi Qafqazda ən qədim metallurgiya mərkəzinin də Naxçıvan olduğunun müəyyənləşdirilməsi üçün müəyyən işlər görülməkdədir. İlk tədqiqatlar Naxçıvandakı mis yataqlarının insanlar tərəfindən istifadə olunduğunu təsdiq edir. Mis, qurğuşun alətlərin mis yataqları ilə qarşılıqlı analizi Naxçıvanın qədim metallurgiyasının yerli xammala əsaslandığını deməyə əsas verir.

## El sənətləri yaşadılır



Naxçıvan Biznes Mərkəzinin nəzdində fəaliyyət göstərən xalq yaradıcılığı emalatxanasında uşaq və yeniyetmələrin müxtəlif sənətləri öyrənmələri üçün kurslar təşkil olunur. Uşaqlar yumurta qabığından, undan, rəngli kağızdan müxtəlif əl işləri hazırlayırlar. Emalatxanada qadınlar tərəfindən toxunan balaca dekorativ xalçalar da göz oxşayır. Burada Naxçıvanda və Ordubadda toxunmuş xalçalar çoxluq təşkil edir. Emalatxanaya həmçinin bərpaya ehtiyacı olan xalçalar da gətirilir. Bu xalçaların çeşniləri yenidən işlənərək əvvəlki görkəminə qaytarılır.

Ömrünü bu sənətə bağlamış Akif Həsənovun əl işləri də xüsusi maraq doğurur. Onun əl işlərinin əksəriyyətində Möminə xatın türbəsində gördüyümüz nəbati, həndəsi naxışlardan istifadə edilib. O, ağac üzərində İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Memar Əcəmi, Hüseyn Cavid kimi şəxsiyyətlərin portretlərini, barelyeflərini hazırlayıb. Həmçinin Naxçıvanın xəritəsi də hazırlanan əl işləri sırasındadır. Cəlil Məmmədquluzadənin "Çay dəstgahı", Nizami Gəncəvinin "Fərhad və Şirin" əsərlərinin barelyefləri də Akif usta tərəfindən hazırlanıb. Müqəddəs kitabımız "Qurani-Kərim"i oxumaq üçün istifadə olunan, böyük zövqlə düzəldilmiş rəhil də ustanın hazırladığı gözəl əl işlərindən biridir. Bütün bunların ərsəyə gəlməsində qoz, fındıq, armud ağaclarından istifadə olunub.

Onu da qeyd edək ki, burada hazırlanan əl işləri Naxçıvan şəhərinin Heydər Əliyev prospektində fəaliyyət göstərən əl işləri və sənət əsərlərinin sərgi-satış mağazasında satılır.

Beləcə, qədim el sənətlərimiz yaşadılır, qorunur, hazırlanan sənət işləri muxtar respublikanın daha yaxından tanıdılmasına öz töhfəsini verir.

**Telli MUSTAFAYEVA**

*Sağlam həyat*

**Sağlam yaşamaq həyatda hər kəsin arzusudur. Buna görə də bu arzu evdə, işdə, müxtəlif məclislərdə, səfərə gediləndə daim insanların dilindən səsləndirilib. Arzuların ən böyüyü sayılan cansağlığı hələ qədim dövrlərdən insanları düşündürüb, onları həyatda sağlam yaşamağın yollarını öyrənməyə sövq edib. İndiyədək bu sahədə saysız-hesabsız kitablar yazılsa da, tədqiqatlar aparılsa da, yenə də xəstəliklər insanlara "ömür yoldaşı" olmaqda davam edir. Hətta deyərdik ki, bu cür "yoldaşlarımız" müasir dövrdə daha da çoxalıb. Bunun bir çox səbəbləri var. Təzad bundan ibarətdir ki, dünya nə qədər çox inkişaf edirsə, insanların sağlamlıq baxımından vəziyyəti də o qədər ağırlaşır. Bu barədə ötən yazılarda qeyd etmişdik, ancaq yenə də xatırlamağı lazım bilirik.**

# Sağlam olmağımız onlardan asılıdır

Bir nüansı heç vaxt yaddan çıxarmayaq ki, müasir insanın rahat yaşaması üçün bəşəriyyət saysız-hesabsız ixtiralar edib: avtomobillər, təyyarələr, elektron informasiya vasitələri və sair. Tibb elmi sübut edir ki, bəşəriyyət yarandıqdan bu tərəfə insanların qidalanma prosesində mühüm dəyişikliklər baş verib. Bir zamanlar təbiətdən asılı olan insan indi təbiəti özünə asılı etmək uğrunda mübarizə aparır. Məhz problemlər də buradan yaranmağa başlayır. Elm inkişaf edərək cəmiyyətə mühüm nailiyyətlər bəxş etsə də, insanoğlunun iddiaları bəzi hallarda onun əleyhinə işləyib. Fakt ondan ibarətdir ki, insanlar illər keçdikcə təbii qidalardan uzaq düşməyə başlayıb, nəqliyyat vasitələrinin inkişafı hərəkətsizlik kimi bir sindromu gündəlik həyatımızın ayrılmaz bir hissəsinə çevirib. Nəticədə, bioloji orqanizmimiz ona vurulan bu zərbələr nəticəsində müxtəlif xəstəliklərlə qarşılaşmalı olur. Halbuki ana təbiətin Günəş, su, hava, torpaq kimi ünsürləri həyatın əşrəfi sayılan insana sağlam ömür sürmək haqqını verib. Biz isə bu haqdan yetərincə istifadə edə bilmirik. Sağlamlığımızı yalnız onu itirdikdən sonra axtarmalı oluruq.

Bildiyimiz kimi, insanların anatomik quruluşunda hər bir orqanın öz rolu və funksiyası var. Uca Yaradanın şah əsəri olan insan müxtəlif orqanlar vasitəsilə öz yaşamını təmin edir: yeyir, içir, görür, hərəkət edir və sair. Təbii ki, insan yaşamaq üçün qidalanmalıdır. Bu qidalanmada isə bütün orqanlardan əvvəl dişlər öz funksiyasını həyata keçirir. Yəni qida ilk olaraq ağızda dişlər vasitəsilə çeynənilir, sonra qida borusu vasitəsilə mədəyə ötürülür. Əgər qəbul etdiyimiz qidalar yaxşı çeynənməsə, demək ki, problemlərə yol açıqdır. Diqqət edək, dişlər qəbul olunan qidanın bölünməsində, əzilməsində və dəfələrlə çeynənməsində mühüm rol oynayaraq onun mədədə yaxşı həzm olunmasına şərait yaradır. Əgər bu proseslər dişlər tərəfindən düzgün yerinə yetirilməzsə, mədədə həzm prosesi də çətinləşəcək, udduğumuz qidanın bir hissəsi parçalanmayacaq, parçalanmadığına görə orqanizmdə enerji mənbəyinə də çevrilməyəcək və nəhayət, müxtəlif xəstəliklərə səbəb olacaq toksinlər qazanacağıq. Hansı ki bu toksinlər orqanizmdə qaldıqca ən ağır xəstəliklərin yaranmasına səbəb olacaq. Məsələ təkcə bununla bitmir. Əgər dişlər yeməyi xırdalaya bilmirsə, mədənin işi ağırlaşır, qida borusu və bağırsaqlar tez sıradan çıxır, qaraciyər aktiv şirə ifraz edə bilmir və sair. Deməli, buradan belə nəticəyə gəlmək mümkündür ki, sağlam dişlər bizi ehtimal edilən mühüm xəstəliklərdən qoruyur, daha doğrusu, onların yaranmasına imkan vermir. Eyni zamanda onu nəzərdən qaçırmayaq ki, sağlam dişlər təkcə qida qəbulunda rol oynamır. Sağlam dişlər düzgün çənə quruluşuna, bu da, öz növbəsində, üzün (simanın) gözəlliyinə təsir edir. Bundan əlavə, dişlər danışarkən sözlərin düzgün səslənməsində mühüm əhəmiyyət daşıyır.

Tibbi araşdırmalar göstərir ki, dişlərin formalaşması uşağın doğulmasından çox daha əvvəl başlayır. İnsan rüşeymi artıq 6 həftəliyində çənə sümüklərinin daxilində diş rudimentlərinə malik olur. Hamiləlik dövründə və doğuşdan sonra minerallaşma baş verir, yəni diş rudimentlərinə minerallar toplanır və onlar möhkəm olurlar. Minerallaşma prosesi dişlər ağızda çıxdıqdan sonra belə, davam edir. 5-6 yaşda süd dişləri tökülməyə və onların yerində daimi dişlər çıxmağa başlayır. Ağız boşluğunda çıxan azı dişləri ilk daimi dişlər hesab olunur.

Qeyd edək ki, həkimlər bütün orqanlar kimi, dişlərin də gənc yaşlardan qorunması və möhkəmləndirilməsini məsləhət görürlər. Bunun üçün isə, ilk növbədə, gündəlik rasionumuza qəbul edəcəyimiz məhsulları düzgün seçməliyik. Tibb sahəsində aparılan çoxsaylı tədqiqatlar onu sübut edir ki, yalnız təbii qida məhsulları, xüsusilə meyvə-tərəvəz dişlərin sağlamlığına böyük təsir göstərir. Buna görə də stomatoloqların da gəldiyi ümumi qənaət bundan ibarətdir ki, meyvə, giləmeyvə və tərəvəz məhsullarının qəbulunu daim diqqətdə saxlamaq lazımdır. Eyni zamanda yerkökü, çuğundur, turp kimi tərəvəzlərdən istifadə dişləri mexaniki olaraq təmizləyir, onlarda ərp qatının yaranmasının qarşısını alır.

Yeri gəlmişkən onu da vurğulayaq ki, hazırda bütün dünyada ən geniş yayılmış diş xəstəliyi dişlərin sərt toxumalarının dağılması – kariyesdir. Ümumdünya Səhiyyə Təşkilatının hesablamalarına görə, yer üzündə 5 milyarda yaxın insan kariyesdən əziyyət çəkir. Azərbaycanda da əhalinin 90-95 faizində kariyes var. Bəs kariyes nədən əmələ gəlir? Azərbaycanın qədim sakinlərinin kəllə sümüklərini öyrənən alimlər bununla bağlı maraqlı nəticələrə gəliblər. Araşdırmalar göstərib ki, bizim eradan əvvəl I əsrdən eramızın VII əsrinə qədər olan dövrdə qədim insanlarda kariyes çox az olub. Əgər indi 95 faizdirsə, o zaman 30-40 faiz təşkil edib. Tədqiqatçılar faizin aşağı olmasını onunla əlaqələndirirlər ki, qədim insanlar indiki qidalarla deyil, təbii qidalarla qidalanırdılar və onların diş-çənə sistemində güclü çeynəmə prosesi gedirdi. Maraqlı burasıdır ki, VII əsrdən sonra kariyesin də faiz göstəricisi çoxalıb. Bunu onunla əlaqələndirirlər ki, həmin dövrdən başlayaraq un məmulatları ilə qidalanma daha da genişlənib. İndiki zamanda nəzəriyyələr də sübut edir ki, kariyes çoxsəbəbli xəstəlikdir. Onlardan birincisi isə karbohidratların artıq dərəcədə qəbuludur. Xüsusilə şirniyyata güclü həvəsi olanlarda kariyes daha çox müşahidə edilir. Həkimlər bu xəstəliyin qarşısını almaq üçün qəbul edilən qidaların tərkibinin zəngin olmasına diqqət çəkərək daha çox meyvə-tərəvəz məhsullarına üstünlük verilməsini məsləhət görürlər.

Bəli, dişlər orqanizmin elə üzvləridir ki, orqanizmdə baş qaldıran xəstəliklərin böyük əksəriyyəti onlardan qaynaqlanır. Burada qədim Şərq təbabətinə aid bir məsəli xatırlamadan keçmək olmur: "Bir insanın sağlam olmağını bilmək istəyirsənsə, əvvəlcə onun dişlərinə bax".

✍ **Səbuhi HƏSƏNOV**

# Şərəfli müəllim ömrü

*Yəqin ki, bir çoxlarınız öz bağınızda və ya həyətyanı sahənizdə ağac əkmisiniz. Bu ağaca cidd-cəhdlə, diqqətlə qulluq edib, boya-başa çatmasını gözləmisiniz, ilk dəfə tumurcuqlayıb çiçək açanda balaca uşaq kimi sevinib, şadlanmısınız. Ona görə sevinmisiniz ki, əməyiniz boşa getməyib, zəhmətiniz öz bəhrəsini verib. İllər sonra, ağac yaxşı bar verən zaman öz yaxınlarınıza fəxrlə bu ağacı göstərib demisiniz ki, onu siz əkib-becərmisiniz. Hələ neçə-neçə nəsillər bu ağacın verdiyi məhsuldan bəhrələnə bilər. Yaxşı müəllim də yaxşı bağban kimidir. Balaca fidanı böyüdür, minbir zəhmət çəkir, ona biliklərdən mənəvi qida verir, vaxt yetişəndə isə şagirdinin bilikli, qabiliyyətli olduğunu görüb fərəhlənir, qol-qanad açır. Ordubad rayonunun Kotam kəndində pedaqoji fəaliyyətlə məşğul olan Cabir İsmayılovu da bu baxımdan işinin ustası, yaxşı pedaqoq, şagirdlərinin uğurları ilə fərəhlənən zəhmətkeş insan adlandırsaq, heç də mübaliğəyə yol vermiş olmarıq.*



Ömrünün 42 ilini pedaqoji fəaliyyətə həsr etmiş Cabir müəllimlə görüşdüyüm ilk dəqiqələrdən məndə bu gülərüz, mülayim təbiətli, səmimi insanı yaxından tanımaq, saçını müqəddəs bir işdə ağartmış, neçə-neçə vətən övladına coğrafiya fənninin sirlərini öyrətmiş yurddaşımızla həmsöhbət olmaq həvəsi oyandı.

Cabir müəllim 1953-cü ildə Ordubad şəhərində anadan olub. 1970-ci ildə Ordubad şəhər 1 nömrəli orta məktəbini bitirib. Elə müəllimlik peşəsinə həvəs də məktəb illərindən başlayıb. Dediyinə görə, ona qayğı göstərən, onun bütün çətinlikləri ilə maraqlanan, çətinə düşəndə hər zaman yanında olan müəllimləri olub. O isə həmin müəllimləri bu gün də unutmur, onların əziz xatirəsini yad edir, ənənələrini davam etdirir, məktəb illərində ona necə münasibət göstəriblərsə, eyni münasibəti şagirdlərinə göstərir.

Şagirdlərdən söz düşmüşkən, onu da deyim ki, Kotam kənd tam orta məktəbinin direktoru Anar Həsənli də Cabir müəllimin şagirdi olub. Biz onunla söhbət edərkən arada onun öz müəllimi yanında davranışları da diqqətimdən yayınmır. Ona diqqətlə qulaq asır, öz müəllimiylə, onun şagirdi olması ilə qürur duyur.

Söhbət əsnasında Cabir müəllim fəxrlə öz keçmiş şagirdinə baxıb deyir ki, dərs dediyim şagirdlər arasında cəmiyyətdə yüksək mövqeyə, yaxşı biliyə, insanlar arasında nüfuza sahib olanlar onlarladır. Onlar nəinki muxtar respublikada, eləcə də ölkəmizin digər regionlarında müxtəlif sahələrdə çalışır, öz müəllimlərinin başını uca edən, ona qürur və fəxarət gətirən nailiyyətlər qazanırlar.

Onun dediklərindən: 1974-cü ildə Unus kənd tam orta məktəbinə coğrafiya müəllimi kimi təyinat alanda mən yalnız əlinə yeni diplom almış təcrübəsiz, müəllimlik peşəsinin sirlərinə nabələd bir gənc idim. Ancaq bu peşəyə böyük həvəsim var idi. Hər gün sübh tezdən Ordubad şəhərindən Unus kəndinə gedər, o kəndin məktəbində uşaqlara coğrafiya fənninin sirlərini öyrədər, yorğun olsam da, böyük sevinclə geri qayıdardım. Ona görə sevinirdim ki, Tanrı müəllimlik kimi böyük zirvəni fəth etməyə başlamağa mənə izin verdi, mənim də şagirdlərim var. Onlara dərs deyir, müəllimlərimin mənə öyrətdiklərini onlara aşılaya bilirəm. Bir də ona görə sevinirdim ki, mən həm öyrədən, həm də öyrənənəm. Yəni özüm öyrətməklə bərabər, həm də öyrənirəm.

"Bu günün müəllimi necə olmalıdır?" sualının cavabında Cabir müəllim özünəməxsus şəkildə belə deyir: müəllim, hər şeydən əvvəl, özü olmalıdır. Hər bir şagirdin qayğısı, problemləri, mənəvi dünyası ilə maraqlanmalı, yaxşı oxumayan, dərslərindən geri qalan şagirdinin gələcəyindən narahatlıq keçirən, həmin şagirdin üstündə yarpaq kimi əsən adam olmalıdır. Tez qavrayan şagirdi öyrətmək elə bir güclü bacarıq tələb etmir. Əsas odur ki, geridə qalanları ön sıralara çıxara biləsən. Əsl müəllim şagirdinə gələcək həyat yolunda qarşılaşacağı çətinlikləri, maneələrdən necə qurtulmağı göstərən adamdır. Əsl müəllim özü şam kimi yanıb bitsə belə, nurunu, əməyini, alın tərini, aylarını, illərini şagirdlərindən əsirgəməyən peşə sahibidir. Şagirdlərin gözü tərəzidir. Yaxşını-pisi tez seçir. Ona görə də müəllim evdə də müəllim olmalıdır, yolda da, el içində də, dərsdə də. Müəllim bilikli, yenilikçi, daim öyrənən, dövrlə ayaqlaşan adam olmalıdır.

Cabir İsmayılov onu da dedi ki, bu müqəddəs peşəni seçməyimə heç də peşman deyiləm. Müəllim işlədiyim illər ərzində – hər dəfə sinfə girib şagirdlərimin mənə zillənən baxışlarını gördükdə bu peşənin şərəfini, məsuliyyətini daha çox dərk etmişəm. Unutmamışam ki, yetişdirdiyim hər bir şagird qiymətli bir xəzinədir, gələcəkdə xalqımıza xeyir verəcək layiqli bir vətəndaşdır. Müəllimlik çətin peşədir. Amma bir şagirdin qazandığı uğur çəkilən bütün əziyyətləri bir anda silir, yerini xoş bir məmnunluq, sevinc hissi tutur. Mən də çalışmışam ki, tədris etdiyim fənnin elmini yaxşı bilim, həvəslə onun inkişaf üfüqlərini – yeni kəşfləri, tədqiqatları, nailiyyətləri izləyim.

Cabir müəllim deyir ki, yaxşı müəllim şagirdlərinin mənəvi dünyasının memarı olmalı, hər gün mütaliə etməli, dünyada baş verən yeniliklərdən agah olmalı və bundan nəticə çıxarmalı, şagirdləri tənbeh edərkən də, tərifləyərkən də əndazəni aşmamalıdır. Bir məsələni də yaddan çıxarmaq olmaz ki, əgər müəllim dərsdə özünü bir cür, dərsdən sonra başqa cür aparırsa, şagirdin də ona inamı azalar. Ona görə də müəllim hər yerdə özünü müəllim kimi, əsl öyrədən kimi aparmalıdır.

Qeyd edim ki, o, tətil günlərində məktəbliləri tez-tez başına toplayıb yaxınlıqdakı dağlara, çaylara, çəmənlərə üz tutur, uşaqların yaşadıqları ərazinin coğrafiyasını, təbiətini, nadir bitkilərini onlara öyrədir.

Araz nəfəsli kənddə – Kotamda Cabir müəllimlə söhbətim tətil günlərində, məktəbliləri doğma yerlərə ekskursiyaya apararkən baş tutdu.

✍ **Səbuhi HÜSEYNOV**

# İdmanda güc və kamilliyin vəhdəti

***İnam, mübarizə, qələbə – bu kəlmələr çalışdığı sahədən asılı olmayaraq, hər bir insan üçün böyük önəm kəsb edir.***

İdman sahəsində bu sözlər daha qabarıq səslənir. Niyə? Çünki idman elə bir sahədir ki, burada insan gücünün və kamilliyinin sonsuzluğu sübut olunur. İdmançı mübarizə apardığı hər yarışda iki mütləq, daha dəqiq desək, yekun nəticə ilə qarşı-qarşıya qalır: qələbə və ya məğlubiyyət. Dəyişilməz bir hal var ki, burada qələbə və ya məğlubiyyət hər zaman idmançının ən yaxın dostudur. Bunun dərinliyini dərk etməyən idmançı isə heç vaxt uğur qazana bilməz.

Güc və kamilliyin vəhdəti idman sahəsində insanları hər zaman bir addım önə çıxarır. Bunu bəzən psixoloqlar qəbul edilməyən termin kimi qələmə verirlər. İdman sahəsində çalışan həkimlərin fikrincə, əldə olunan qələbələr idmançının aylarla gərgin məşqlərinin, gündəlik idman rejiminə əməl etməsinin və özünəinamının bəhrəsidir. Məğlubiyyət acısı isə onların özünü yenidən sınamaq və qələbə qazanmağa kökləyən amildir.

Psixoloqlar idmançının fiziki hazırlığının onun psixoloji hazırlığı ilə vəhdət təşkil etməyinin vacib olduğunu qeyd edirlər. Bu iki məfhumu bir-birindən ayırmaq mümkün deyil. Məşq prosesində idmançı çox çətin olan müəyyən fiziki təmrinləri yerinə yetirir. İdmançı o halda özünü qələbəyə yaxın hiss edə bilər ki, onun psixoloji hazırlığı da yüksək səviyyədə olsun, özünə inansın.

Həkimlər və psixoloqlar bəzən tibb elminə yaxın olmayan inancların idmanda da rolunu xüsusi vurğulayırlar. Onların təbirincə desək, bir idmançının özünəinam hissinin formalaşmasında avtotreninqdən istifadə etməyi məsləhətdir. Yəni cəmiyyətimizdə hər bir insanın özünütəlqin sözləri olur və bu sözlərin təkrarlanması ona əlavə güc verir. Bunlara bəzən sehrli sözlər də deyilir. Bu sözlərlə onlar motivasiya olunurlar ki, bununla da özlərini məşqçilərinə, onları boya-başa çatdıran valideynlərinə sübut etməyə çalışırlar.

Hər bir idmançı üçün ən qürurverici an onun fəxri kürsünün ən yüksək pilləsində dayanmasıdır. Buna nail olmağın yeganə yolu isə mübarizə əzmini sonadək davam etdirmək, psixoloji və fiziki hazırlığa riayət etməkdir. Daha dəqiq desək, idmançı gücünün və kamilliyinin nəticəsində arzuladığı uğura yiyələnə bilər.

✍ **Ceyhun MƏMMƏDOV**

**ŞƏRQ qapısı**

Məsul katib:
Muxtar Məmmədov

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 631